30 oktyabr / 2021

Ədəbiyyat QƏZETİ



## Nizami MURADOĞLU

Amansız ölüm qələm yoldaşımız Nizami Muradoğlunu aramızdan apardı.

Nizami Murad oğlu Məmmədov 1951-ci il aprelin 2-də Ordubad rayonunun Əylis kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1972-ci ildə Naxçıvan Dövlət Pedaqoji Universitetinə daxil olmuşdur. 1978-ci ildə əmək fəaliyyətinə başlamışdır. Ömrünün böyük bir hissəsini ictima-siyasi işlərə həsr etmişdir. Təhsil sistemində, komsomol işində çalışmışdır. Müstəqil Azərbaycanın ilk illərində dövlət quruculuğu işlərində fəallıq göstərib, 1994-1996-cı illərdə Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini, 1996-2002-cı illərdə başçı olmuşdur.

Bədii yaradıcılığa ötən əsrin 70-ci illərində başlamışdır. İlk şeirləri "Azərbaycan gəncləri" qəzetində, "Qobustan" dərgisində çap olunmuşdur. Keçən qırx illik bir müddətdə ədəbiyyatımız və xalqımızın taleyi ilə bağlı məsələləri əhatə edən yazılarla müxtəlif mətbu orqanlarında çıxışlar etmişdir. "Qayıda bilmirəm", "Dayan əsən külək", "Vətən dərdi", "Sabaha açılan qapılar", "Bu dünyanın məzarları ağlamaz", "Yaşayan Cavidlər", "Sözün Məmməd Araz zirvəsi", "Baba ocağı" kitabları,"Seçilmiş əsərləri maraqla qarşılanmışdır. 2014-cü ildə "Mamed Araz i narodnoe tvorçestvo" kitabı "Palmarium" beynəlxalq kitab nəşriyyatında çap olunub rusdilli oxucuların ixtiyarına verilmişdir. Bədii yaradıcılıqla yanaşı, elmi fəaliyyətlə də məşğul olmuşdur. XX əsrin əvvəllərində Naxçıvana qarşı erməni təcavüzü ilə bağlı yazdığı "Baba ocağı" romanı Əylisdə və Əylisətrafı ərazilərdə baş verən hadisələrin həqiqi mənzərəsi ilə oxucuları tanış edir. 2013-cü ildə "Kaspi" qəzetinin M.Arazın yaradıcılığı ilə bağlı keçirdiyi müsabiqədə "Məmməd Araz yaradıcılığında "Dünya obrazı" məqaləsi ikinci dərəcəli mükafata layiq görülmüşdür.

Son illər AMEA Folklor İnstitutunun folklor və yazılı ədəbiyyat şöbəsində baş elmi işçi vəzifəsində çalışmışdır.Filologiya elmləri doktoru idi.

İstedadlı qələm yoldaşımız səmimi, təvazökar insan Nizami Muradoğlunun işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**
**AMEA Folklor İnstitutu**